

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 30 (20.931)

*15 fevral 2014-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


# Hacıvar-Vayxır-Sirab avtomobil yolu istifadəyə verilmişdir





Hər bir bölgənin inkişafını müəyyən edən əsas göstəricilərdən biri də yol tikintisidir. Bu gün muxtar respublikada geniş vüsət alan yol-nəqliyyat infrastrukturunun yeniləşdirilməsi tədbirləri də sosial-iqtisadi inkişafın mühüm istiqamətini təşkil edir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Yol tikintisi inkişaf, insanların normal, rahat yaşaması üçün əsasdır. Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir. O cümlədən Naxçıvanda bu proses sürətlə gedir və həll olunur”.***

Fevralın 14-də Hacıvar-Vayxır-Sirab avtomobil yolu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Kültəpə kənd sakini Firudun Zamanov çıxış edərək demişdir ki, Babək rayonunun kənd yaşayış məntəqələrini əhatə edən avtomobil yolunun istifadəyə verilməsi sakinlərin böyük sevincinə səbəb olmuşdur. Müasir tələblər səviyyəsində qurulan yolda nəqliyyatın təhlükəsiz hərəkəti təmin edilmişdir. Bu da insan rahatlığının əsas şərtlərindən biridir. Yeni yol təkcə Babək rayonunun deyil, ümumilikdə, muxtar respublika üçün mühüm iqtisadi əhəmiyyətə malikdir. Firudun Zamanov yaradılan şəraitə görə sakinlər adından minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Hacıvar-Vayxır-Sirab avtomobil yolunun istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını və yoldan istifadə edən sakinləri təbrik edərək demişdir: “Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” 2013-cü il 5 mart tarixli Sərəncamına əsasən, Hacıvar-Vayxır-Sirab avtomobil yolunun tikintisinə 6,3 milyon manat vəsait ayrılmışdır. Sərəncamın icrası nəticəsində 18 min əhalinin yaşadığı 13 kənd yaşayış məntəqəsini əhatə edən və



ümumi uzunluğu 26 kilometr olan yolda tikinti işləri keyfiyyətlə aparılmış və 1 il müddətində başa çatdırılmışdır”.

Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin ***“Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir”*** fikrini xatırladaraq demişdir: “Yolların abadlığı insanların rahatlığı, sakinlərin rifahının yüksəlməsi deməkdir. Çünki rahat yolda nəqliyyat vasitələrin uzun müddət istismar olunur, insanlar mənzil başına daha tez və təhlükəsiz çatırlar. Eyni zamanda kənd yollarının müasir şəkildə qurulması istehsal olunan məhsulların rahat şəkildə bazara çıxarılmasına imkan verir. Bütün bunlar isə ailə büdcəsinə qənaət edilməsi ilə yanaşı, həm də iqtisadiyyatın inkişafı deməkdir”.

“Yol tikintisi Azərbaycan dövlətinin iqtisadi qüdrətinin və vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu gün muxtar respublikada yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi yaşayış məntəqələri arasında əlaqələrin daha səmərəli qurulmasına səbəb olmuşdur. Hacıvar-Vayxır-Sirab avtomobil yolu da avtomobillərin Naxçıvan şəhərinə daxil olmadan Şahbuz-Culfa-Ordubad və əks istiqamətində 12 kilometr məsafəyə qənaət etməklə rahat hərəkət etməsinə imkan verəcəkdir. Qeyd olunmuşdur ki, yeni yolların tikilməsi həm də kəndlərin abadlaşması və inkişafı ilə nəticələnir. Hacıvar-Vayxır-Sirab avtomobil yolunun keçdiyi kəndlərdə də geniş abadlıq işləri aparılmış, metal çəpərlər çəkilmiş, hasarlar hörülmüş, həyət qapıları dəyişdirilmişdir.

Ali Məclisin Sədri bundan sonra da muxtar respublikada yol tikintisinin davam etdiriləcəyini bildirmiş, sakinlərin yeni yoldan səmərəli istifadə edəcəklərinə əminliyini ifadə etmiş, açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, tikinti işləri zamanı yol yatağı genişləndirilmiş, hərəkət hissəsinin eni 8 metrə çatdırılmış, yola yeni asfalt örtük salınmışdır. Muxtar respublikamızda reallaşdırılan mühüm infrastruktur layihələrindən biri olan Hacıvar-Vayxır-Sirab avtomobil yolunun üzərində 2 körpü, 2 betonselötürücü və 170 ədəd müxtəlifdiametrli borularla su keçidi inşa edilmişdir. Tikinti işləri aparılarkən mühəndis texniki tələblərə tam əməl edilmiş, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti üçün siqnal dirəkləri quraşdırılmış və avtomobil yolu hərəkət nişanları ilə təmin edilmişdir.

Sonra Ali Məclisin Sədri Naxçıvançay üzərində inşa olunan və Hacıvar-Vayxır-Sirab avtomobil yolunu Naxçıvan-Şahbuz-Batabat magistralı ilə birləşdirən yeni körpüyə baxmışdır.

Məlumat verilmişdir ki, ərazidəki köhnə körpü tələbləri ödəmirdi. Yolun tikintisi zamanı bu problem öz həllini tapmış, Naxçıvançayın üzərində yeni körpü tikilmişdir. Uzunluğu 36 paqonometr olan körpünün eni 12 metrdir. Suyun istiqamətləndirilməsi və yuyulmanın qarşısının alınması üçün körpünün ətrafında istinad divarları və dəmir-beton dayaqlar inşa edilmişdir.

Ali Məclisin Sədri yola vaxtlı-vaxtında texniki qulluq göstərilməsi, eləcə də Naxçıvançay yatağında istiqamətləndirici bəndlərin salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# İqtisadi İnkişaf Nazirliyinin kollegiya iclası keçirilmişdir



*Fevralın 14-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin 2013-cü ildə görülmüş işlərlə bağlı kollegiya iclası keçirilmişdir. İclası iqtisadi inkişaf naziri Famil Seyidov açaraq məruzə ilə çıxış etmişdir.*

Bildirilmişdir ki, ötən il də sahibkarlığın inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən biri olmuş, Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payı artaraq 87 faizə çatmışdır. “Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının uğurla başa çatdırılması sosial-iqtisadi inkişafın sürətlənməsinə, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə əsaslı stimul olmuşdur.

Vurğulanmışdır ki, 2013-cü ildə 124 istehsal və xidmət sahələri istifadəyə verilmişdir. Fəaliyyəti bərpa edilmiş və yeni qurulmuş istehsal müəssisələrində 346 növdə məhsul istehsalına və 332 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsinə nail olunmuşdur. Bununla da, yerli istehsalın stimullaşdırılması sənaye sektorunun yüksək templə inkişafını təmin etmiş, sənaye məhsulunun həcmi 6,3 faiz artaraq 862 milyon 870 min manata çatmışdır.

Əhalinin mövsümi məhsullara olan tələbatının ödənilməsi, qiymətlərin tənzimlənməsi məqsədilə soyuducu anbarlara 2013-cü il ərzində 4784 ton məhsul tədarük olunmuş, istixana komplekslərində 185 ton məhsul yetişdirilmişdir.

İqtisadi layihələrin maliyyələşməsi məsələsinə də toxunan nazir 2013-cü ildə 82 layihənin maliyyələşdirilməsinə 12 milyon 771 min manat həcmində dövlət maliyyə dəstəyinin göstərildiyini qeyd etmişdir.

Qeyd olunmuşdur ki, keyfiyyətə nəzarət sisteminin təkmilləşdirilməsi, yerli məhsulların ixracının genişləndirilməsi və stimullaşdırılması məqsədilə “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyasının beynəlxalq akkreditasiyadan keçirilməsi istiqamətində bütün zəruri tədbirlər həyata keçirilmiş, laboratoriyanın maddi-texniki bazasının gücləndirilməsi üçün lazımi avadanlıqlar alınmış, beynəlxalq təcrübədən faydalanmaqla İngiltərə, Almaniya, Latviya ölkələri ilə qarşılıqlı test analizləri aparılmış, akkreditasiya prosesi bütün mərhələlər üzrə başa çatdırıldıqdan sonra akkreditasiya şəhadətnaməsi verilmişdir.

Məruzəçi hesabat dövründə yol verilmiş nöqsanlara da toxunmuş, bu nöqsanların qısa zamanda aradan qaldırılması üçün lazımi tədbirlərin görüləcəyini bildirmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Xəbərlər şöbəsi**



*Ölkəmizin inzibati-siyasi xəritəsində diyarımızın bu dilbər guşəsi kiçik bir yer tutan, ulu öndərimiz Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad binayi-qədimdən özünün maddi-mədəniyyət nümunələri, əvəzsiz tarixi-memarlıq abidələri, özünəməxsus adət-ənənələri ilə tanınıb. Son illər bu qədim yurd yeri də digər bölgələrimiz kimi sürətli inkişaf yoluna çıxıb. Bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, tikinti-quruculuq işləri geniş vüsət alıb. Yeni tikililər qədim Ordubada yeni görkəm gətirib. Böyük dövlət qayğısı hesabına tarixiliyini saxlamaqla abad və füsunkar bir yurd yerinə çevrilən bağlar diyarı 2013-cü ildə də böyük uğurlar qazanıb.*

# Ordubad illərin uğur estafeti

### Ordubadlıların ürək sözləri

"Ordubadlılar çətinliyə dözməyi bacaran insanlardır. Buna baxmayaraq, ötən əsrin 90-cı illərinin əvvəllərində onların da bəzilərində ruh düşkünlüyü sezilirdi. Belələrini qınamaq da olmurdu. Niyə? Məktəb binaları yararsız vəziyyətdə idi, təhsil ocaqları uyğunlaşdırılmış binalarda yerləşdirilmişdi. Səhiyyə xidməti unudulmuşdu, müasir informasiya texnologiyalarından istifadə barədə söhbət etməyə dəyməzdi. Elektrik enerjisi, yanacağın olmaması isə ən böyük dərdlərimizdən idi. Xidmət sahələrinin fəaliyyətini yox səviyyəsində saymaq olardı. Bu gün muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Ordubad rayonunda da böyük quruculuq işləri həyata keçirilir. Sevinirik ki, bu gün Ordubadın da problemləri öz həllini tapıb, özü də yüksək səviyyədə.

İlbəil rayonda müxtəliftəyinatlı tikintilərin sayı artır. Elə 2013-cü ildə rayon ərazisində xeyli quruculuq işi görülüb. Dövlətimiz öz vətəndaşlarının yaxşı yaşaması üçün bütün imkanlardan istifadə edir. Bütün gücümüzlə çalışacağıq ki, bizə göstərilən etimadı doğruldaq, muxtar respublika iqtisadiyyatının gücləndirilməsinə töhfələrimizi verək". Bu sözləri rayon sakini, qocaman müəllim Şəhrud İsmayılov deyir.

Ordubad Bələdiyyəsinin sədri Eldar Zeynalov söhbətə qoşulur: "Müxtəlif dövlət proqramlarının muxtar respublikamızda ardıcıllıqla, uğurla həyata keçirilməsi digər bölgələr kimi, bu rayona da canlanma gətirib. Bu gün Ordubadda elə bir sahə yoxdur ki, orada inkişaf, dirçəliş, yüksəliş meyilləri hiss olunmasın. Təkcə Ordubad şəhərinin deyil, ucqar kəndlərin belə, siması yeniləşib. Son illərdə quruculuq işlərinin həcmi daha da artıb, miqyası genişlənib. Rayonun elə bir yaşayış məntəqəsi yoxdur ki, görkəmini dəyişməsin, orada sosialtəyinatlı tədbirlər həyata keçirilməsin. Bu müddətdə neçə-neçə kənddə yeni təhsil, səhiyyə, mədəniyyət obyektləri inşa olunub, yollar çəkilib, körpülər salınıb, su, elektrik təsərrüfatı yaxşılaşdırılıb. Görülən işləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ölkəmizdə bərqərar olunmuş sabitlik və sürətli sosial-iqtisadi inkişafla əlaqələndirərək belə xarakterizə edir: ***"Bu gün ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi islahatlar bütün sahələrin inkişafına səbəb olmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər muxtar respublikada da uğurla davam etdirilir... Əhalinin rahatlığı üçün lazımi şərait yaradılır, insanlar hərtərəfli qayğı ilə əhatə olunur, yeni sosial obyektlər tikilərək istifadəyə verilir, fərdi təsərrüfatların genişləndirilməsi üçün lazımi dövlət dəstəyi göstərilir. Bütün bunların həyata keçirilməsi ölkəmizdə Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsində mümkün olmuşdur".***

Hər iki rayon ziyalısının söhbətlərini bütün ordubadlıların ürək sözləri kimi qəbul etmək olar. Dövlət-vətəndaş münasibətləri prizmasından baxsaq, bu, muxtar respublikada insanların təfəkkür tərzinin, həyata baxışlarının, bütövlükdə, dövlətçiliyə sədaqət ruhunda formalaşması deməkdir.



*Xurs kəndindən görünüş*

### Ordubadın quruculuq xəritəsində yeni ünvanlar

2013-cü ilin nailiyyətlərini ilk olaraq tikinti-quruculuq sahəsində görmək olar. Ənənəvi olaraq ötən il də belə işlər rayon mərkəzi ilə yanaşı, kənd yaşayış məntəqələrində də aparılıb. Tikinti-quruculuq işlərinin təyinatı da müxtəlif olmaqla həyatımızın bütün sahələrini əhatə edib. Rayonda 2013-cü ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş investisiyanın 51238,8 min manatından tikinti-quraşdırma işlərində istifadə olunub. Bu da əvvəlki illə müqayisədə 5,5 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Ordubad Rayon Şöbəsinin inzibati binasının, "Gəmiqaya" Tarix-Bədii Qoruğu və muzey üçün binanın, Ordubad şəhərində 242 yerlik uşaq bağçası, Sabirkənddə 378 şagird yerlik, Xurs kəndində 110 şagird yerlik, Nəsirvaz kəndində 88 şagird yerlik tam orta məktəb binalarının, Ələhi kəndində 88 şagird yerlik ümumi orta məktəb binasının, Bist kəndində həkim ambulatoriyası binasının, Nəsirvaz, Ələhi və Xurs kəndlərində kənd mərkəzlərinin və feldşer-mama məntəqələrinin, Nürgüt kəndində feldşer-mama məntəqəsinin tikintisi ilin başa çatan quruculuq tədbirləri sırasındadır.

Bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsinin inzibati binası, Bist və Nürgüt kəndlərində tam orta məktəb binaları yenidən qurulub.

Rayonda sahibkarlıq fəaliyyətinə yaradılan şərait hesabına son illər emal və istehsal sahələrinin sayı xeyli artıb. Ötən il Ordubad şəhərində meyvə-tərəvəz qurudulması, Vənənd kəndində müxtəlif meyvələrdən mürəbbə, Biləv kəndində çörək istehsalı sahələrində, Yuxarı Əndəmic kəndində iki, Aza və Vənənd kəndlərinin hər birində bir istixana kompleksində işlər başa çatdırılıb. Ordubad "Quşçuluq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin genişləndirilməsi istiqamətində tədbirlər görülüb.

Ordubad Su Elektrik Stansiyasının, Ordubad şəhərində istixana kompleksinin, Aza kəndində elektrik açarları və müxtəlif meyvələrdən kompot istehsalı sahələrinin, Aşağı Əylis kəndində heyvandarlıq, Üstüpü kəndində arıçılıq təsərrüfatlarının yaradılması işləri davam etdirilir.

2013-cü ildə rayonda meliorasiya və irriqasiya işlərinin aparılmasına da ciddi önəm verilib. Vələver kəndinə içməli su xəttinin çəkilişi və kaptajın tikintisi, Xanağa kəndində içməli, Nəsirvaz kəndində suvarma su xətlərinin çəkilişi, Çənnəb kəndində içməli və suvarma su xətlərinin yeni əraziyə köçürülməsi, Yuxarı Əylis və Ağrı kəndlərinin hər birində bir kəhrizin təmiri, rayon ərazisində kanal və arxların lildən təmizlənməsi işləri başa çatdırılıb, Yuxarı Əylis kəndində bir kəhrizin təmiri, Sabirkənddə kaptajın tikintisi və su xəttinin çəkilişi davam etdirilib.

Nəqliyyat sahəsi də diqqətdən kənarda qalmayıb. Rayon ərazisində üç körpünün, Gənzə kəndində avtomobil yolunda istinad divarının tikintisi, Biləv-Xurs-Nəsirvaz və Düylün-Çənnəb-Məzrə avtomobil yollarının təmiri başa çatdırılıb.

Sadaladıqlarımız rayonda 2013-cü ildə həyata keçirilən tikinti-quruculuq tədbirlərinin hamısı deyil. Neçə illərdir ki, geniş vüsət alan belə işlərin bir qismidir. Bütün bunlar ordubadlılar tərəfindən onlara göstərilən yüksək dövlət qayğısı kimi dəyərləndirilir və onlar da bölgənin quruculuq xəritəsinin ilbəil genişləndirilməsindən qürur hissi duyur, tikilənlərin, qurulanların qorunmasını vətəndaşlıq borcu hesab edirlər.

### Aqrar bölmənin də inkişafı diqqət mərkəzindədir

Aqrar sahəyə gəldikdə isə deməliyik ki, əvvəlki illərdə olduğu kimi, 2013-cü ildə də bu sahədə xeyli irəliləyiş müşahidə edilib. Rayon İcra Hakimiyyəti başçısının müavini Etibar İsmayılov deyir ki, ötən il də rayonun torpaq mülkiyyətçiləri müxtəlif yardımlar və keyfiyyətli toxum sortları ilə təmin ediliblər. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Ordubad rayon bazasının xidmətindən istifadəyə hərtərəfli şərait yaradılıb. Bu da torpaq mülkiyyətçilərinə əkinçiliyin müxtəlif sahələrində yaxşı göstəricilər əldə etməyə imkan verib. Ordubadlıların daha çox məşğul olduqları əkinçilik sahələrindən biri də taxılçılıqdır. Rayonun taxılçıları 2013-cü ildə 2145 hektar sahədən 5750 ton məhsul götürüblər.

Torpaq mülkiyyətçiləri ötən il 2427 hektar sahədə dənli və dənli-paxlalı bitkilərin əkinini keçiriblər. Sahələrdən 6655 ton məhsul toplanıb.

Rayonda kartofçuluğun inkişafı üçün geniş imkanlar mövcuddur. Hər il torpaq mülkiyyətçiləri əkin sahələrinin bir qismini kartofçuluq üçün ayırırlar. Cari ildə onlar 573 hektar sahədən 8410,2 ton məhsul götürərək hektarın orta məhsuldarlığını 146,8 sentnerə çatdırıblar.



*Ələhi kəndindən görünüş*

Digər təsərrüfat sahələri ilə yanaşı, bölgədə meyvəçiliyin də inkişafı diqqət mərkəzində saxlanılıb. Barverən meyvə bağlarından 2955,5 ton məhsul tədarük edilib. Bu, əvvəlki illə müqayisədə 314,9 ton çoxdur. Rayonda üzümçülüyün inkişafı istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, barverən üzüm bağlarından 228 ton məhsul yığılıb.

Yeri gəlmişkən bir məsələni də qeyd edək. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbulundan ötən müddət ərzində rayonda bu istiqamətdə xeyli iş görülüb. Ötən ilin yaz iməcilikləri dövründə 4,5 hektar sahədə yeni bağ salınıb, 3,5 hektar sahədə bərpa işləri aparılıb. Payız iməcilikləri dövründə isə 2 hektar sahə yeni bağlar salınması üçün əkinəyararlı vəziyyətə gətirilib. Bu mövsümdə daha 3,5 hektar bağda bərpa işləri aparılacaq.

### Xidmət infrastrukturlarının fəaliyyəti qənaətbəxşdir

Rayonda rabitə xidmətinin səviyyəsini yüksəltmək üçün həyata keçirilən məqsədyönlü tədbirlər davam etdirilib. Ordubadda 25 avtomat telefon stansiyasının xidmətindən istifadə olunur. Ötən il 191 ədəd telefon çəkilərək abunəçilərin sayı 8059-a çatdırılıb. İnternet istifadəçilərinin də sayı gündən-günə artmaqdadır.

Rayonun Gəmiqaya qolu üstündə yerləşən Bist, Ələhi, Xurs, Nürgüt, Nəsirvaz kəndlərində kompleks quruculuq tədbirləri həyata keçirilməsi ilə əlaqədar bu ünvanlarda yeni xətlər çəkilib, avtomat telefon stansiyası quraşdırılıb. Bölgənin digər yaşayış məntəqələrində də ötən il cari və əsaslı təmir işləri aparılıb. Rabitəçilər abunəçilərin qış mövsümündə hansısa problemlərlə üzləşməmələri üçün bütün mümkün tədbirləri həyata keçiriblər. Bu səbəbdən də heç bir çətinlik hiss olunmur.

Elektrik enerjisindən səmərəli istifadə edilməsi daim diqqət mərkəzində saxlanılıb. Elektriklər cari və əsaslı təmir işlərini vaxtlı-vaxtında və keyfiyyətlə yerinə yetirməyə səy göstəriblər. Müxtəlif gücə malik 3 transformator yarımstansiyası quraşdırılıb, mövcud yarımstansiyalarda təmir işləri aparılıb. 110/35/10 kilovoltluq "Ordubad" yarımstansiyasının tikintisi və avadanlıqlarla təchizat işləri başa çatdırılıb.

Hazırda rayonda 10 min abonent mavi yanacaqdan istifadə edir. Ötən il tikinti işləri aparılan yaşayış məntəqələrində 2094 metr məsafədə boruların yeri dəyişdirilib. 807 metr yeni xətt çəkilib. Qəza-dispetçer xidməti qrupu qış rejiminə keçirilib. Əhali arasında aparılan maarifləndirici tədbirlər davam etdirilir.

### Yeni ildə yeniliklər daha çox olacaq

Bağlar diyarı Ordubad rayonunda 2013-cü ildə görülən işlər, aparılan genişmiqyaslı quruculuq tədbirləri, aqrar bölmədə qazanılan uğurlar, xidmət sahələrinin fəaliyyətinin gücləndirilməsi əhalinin rifah halını daha da yaxşılaşdırıb. Bəs ordubadlılar üçün 2014-cü il necə keçəcək? Bu il rayonda nələrlə yadda qalacaq? Bu suallara Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri Qürbət Rzayev qısa və konkret cavab verir:

– Naxçıvanda dünənlə kifayətlənməyən zamanın bu gün öz diktəsini ortaya qoymasına ciddi reaksiya verilməsi həyatın bütün sahələrində müasirlik ab-havası yaradıb. Bu da regionda bərqərar olunan iş prinsipinin təzahürüdür. Belə iş prinsipi hesabına adamlar hər gün bir yeniliklə rastlaşırlar. Bu, Ordubad rayonunun da gündəlik həyat ritminə çevrilib. 2013-cü ildə və elə ondan əvvəlki illərdə də bölgədə illərə bərabər işlər görülüb. 2014-cü ildə bu işlərin davam etdiriləcəyi, daha böyük yeniliklər yaradılacağı şəksizdir. Çünki neçə illərdir, bunu görürük. Ona görə də tam əminliklə demək olar ki, "Muxtariyyət ili"ndə Ordubad daha böyük uğurlara imza atacaq.

**Muxtar MƏMMƏDOV**

## Vəkilliyə namizədlər test imtahanı veriblər



Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada Vəkillər Kollegiyası üzvlüyünə qəbul olunmaq üçün elan edilmiş müsabiqənin test imtahanı olub. İmtahanı Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası keçirib.

Müsabiqənin test mərhələsində namizədlərə 100 suallıq test tapşırığı təqdim olunub. Bu tapşırıqlardan 80-i hüquqi, 20-si isə məntiqi bilikləri əhatə edib. İmtahanlarda 18 vəkilliyə namizəd iştirak edib, onlardan 12 nəfəri keçid balını toplaya bilib.

Qeyd edək ki, test imtahanlarında 50 və ya daha çox bal toplayan namizədlər növbəti – şifahi imtahan mərhələsində iştirak edəcəklər. Bu mərhələni müvəffəqiyyətlə başa vuran namizədlər Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında 20 günlük təlimə göndəriləcəklər. Təlimlər başa çatdıqdan sonra isə namizədlərin Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasına üzvlük məsələsi kollegiyanın rəyasət heyətində müzakirə olunacaq və müvafiq qərar qəbul ediləcək.

## Ötən ilin yekunları müzakirə edilib

Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsində 2013-cü ildə görülən işlərin yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə dair keçirilən iclası Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi Fəxrəddin Cəfərov açaraq məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, ötən il Arxiv İdarəsi tərəfindən Ordubad, Culfa, Babək, Kəngərli, Şərur, Sədərək və Şahbuz Rayon Dövlət arxivlərində kompleks yoxlamalar aparılmış, vətəndaşlar tərəfindən daxil olan ərizə və sorğulara verilmiş arxiv arayışları analiz edilmişdir. Bundan başqa, rayon dövlət arxivlərində mühafizə olunan dövlət sənədlərinin bərpa edilməsi, uçot və kargüzarlıq işlərinin, habelə sənədlərin idarə, müəssisə və təşkilatlardan qəbulu işlərinin düzgün aparılması üçün dövlət arxivlərinə metodik köməklik edilmiş, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün lazımi tədbirlər görülmüşdür.



Qeyd olunmuşdur ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin 2013-cü ilin iş planına əsasən, sənəd materiallarının tikilməsi və cildlənməsi maddəsi üzrə 2000 plana qarşı 3800 saxlama vahidi tikilərək qaydaya salınmışdır. Sənədlərin bərpası maddəsi üzrə 3000 plana qarşı 3580 vərəqə bərpa edilmiş, sənədlərin təsviri maddəsi üzrə 2000 plana qarşı 3800 iş yerinə yetirilmişdir. Sənədlərin mövcudluğu və vəziyyətinin yoxlanması sahəsində illik plan üzrə 350 min işin mövcudluğuna qarşı 365 min iş mövcudluq vəziyyəti yoxlanılaraq fondlarda yerləşdirilmişdir. Siyahıların təkmilləşdirilməsi və yenidən işlənməsi üzrə 10 min işə qarşı 12 min iş yerinə yetirilmişdir.

Sonra məruzə ətrafında Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin direktoru Mirəli Seyidov, həmin arxivin İnformasiya-axtarış şöbəsinin müdiri Zülfiyyə İsmayılova, Kəngərli, Şərur, Culfa, Babək Rayon Dövlət arxivlərinin müdirləri İdris İbrahimov, Ədalət İmanov, Fatma Abbasova, Vilayət Qasımov çıxış etmişlər.

İclasa Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi Fəxrəddin Cəfərov yekun vurmuşdur.

* * *

*Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatı İdarə Heyətinin yığıncağı keçirilmişdir. Yığıncaqda təşkilatın sədri Mirməcid Seyidov məruzə ilə çıxış edərək ötən il təşkilat tərəfindən görülən işlərdən danışmışdır.*

Qeyd olunmuşdur ki, ötən il Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatı aidiyyəti təşkilatlarla əlaqələri daha da sıxlaşdırmış, müxtəlif mövzularda silsilə tədbirlərin keçirilməsini reallaşdırmışdır. Təşkilatın həyata keçirdiyi tədbirlərin əsas məqsədlərindən biri gənc nəsildə vətənpərvərlik hisslərinin artırılması və onların doğma yurda məhəbbət ruhunda tərbiyə edilməsindən ibarətdir.

"2013-cü ildə bölgələrdə milli qəhrəmanlarımızın, şəhidlərimizin xatirəsinə həsr olunmuş tədbirlər təşkil edilmiş, onların qəhrəmanlıqla dolu həyat yolu televiziya və mətbuatda işıqlandırılmışdır", – deyən Mirməcid Seyidov bildirmişdir ki, belə tədbirlərin keçirilməsi muxtar respublikamızda gənclərin vətənpərvərlik tərbiyəsinin artırılması işində xüsusi əhəmiyyətə malikdir.

Tədbirdə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatının rayon, şəhər şöbələrinin sədrləri çıxış etmişlər.

## Musiqi Kollecində hesabat yığıncağı keçirilib

*Naxçıvan Musiqi Kollecində 2013-2014-cü tədris ilinin I yarısının yekunları ilə bağlı hesabat yığıncağı keçirilmişdir. Tədbiri Musiqi Kollecinin tədris-tərbiyə işləri üzrə direktor müavini Leyla Əlimərdanova açaraq məruzə ilə çıxış etmişdir.*

Bildirilmişdir ki, Naxçıvan Musiqi Kolleci 40 ilə yaxındır, milli musiqimizin, eləcə də klassik və müasir dünya bəstəkarlarının əsərlərinin öyrədilməsində fəaliyyətini davam etdirməkdədir. Kollec yeni tədris ilinin başlanmasından ötən müddət ərzində gənc nəslin ixtisas təhsilində nailiyyətlər əldə etməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir. Açıq və qarşılıqlı mübadilə dərslərində şöbələr üzrə fənlərin tədrisi pedaqoji şuranın iclaslarında müzakirə olunmuş, yüksək nəticələr əldə edilməsi üçün qərarlar qəbul edilmişdir. Tələbələrin dərsə davamiyyəti, dərslərə hazırlıq səviyyələri vaxtaşırı yoxlanılmış və daim nəzarətdə saxlanılmışdır. Bununla yanaşı, tələbələrin kitabxanaya cəlb olunması işində dönüş yaradılmış, Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinin gücləndirilməsinə çalışılmış və bu sahədə tələbələrin fəallığının təkmilləşdirilməsinə nəzarət artırılmış, kollecdə Kitabxana Şurası yaradılmışdır. Həmçinin kollecin tədris otaqlarının əyani vəsaitlər, qrafik və sxemlərlə təchiz olunması təmin olunmuşdur. Qeyd edilmişdir ki, tədris ilinin birinci yarısında keçirilən imtahanların nəticələrinə görə, kollecdə müxtəlif ixtisaslar üzrə 46 nəfər əlaçı, 101 nəfər yarıməlaçı, 162 nəfər kafi qiymətlərlə tədris ilinin birinci yarısına yekun vurmuşlar.

Əvvəlki illərdə olduğu kimi, hesabat dövrü ərzində də kollecin istedadlı tələbələri yaradıcı kollektivlərlə birlikdə müxtəlif hərbi hissələrdə, eyni zamanda sərhəd bölgələrində əsgərlərlə görüşmüş, konsert proqramları ilə çıxışlar etmişlər.

Məruzəçi bütün bunlarla yanaşı, 2013-2014-cü tədris ilinin birinci yarısında yol verilmiş nöqsanlara da toxunmuş, bu nöqsanların tezliklə aradan qaldırılması istiqamətində səylə çalışacaqlarını bildirmişdir.

Sonra məruzə ətrafında kollecin müəllimlərindən Mahirə Məmmədovanın, Samirə Hüseynovanın, Akif Bağırovun və Cabbar Quliyevin çıxışları olmuşdur.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış etmişdir.

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində "Muxtariyyət ili" ilə əlaqədar Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə "Naxçıvan ədəbi mühiti muxtariyyət illərində" mövzusunda açıq dərs keçilmişdir.*

## "Naxçıvan ədəbi mühiti muxtariyyət illərində" mövzusunda açıq dərs



Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Lalə Nəbiyeva açıq dərsdə bildirmişdir ki, XX əsrdə Naxçıvan diyarı Azərbaycan ədəbi mühitinə və mədəniyyətinə bir sıra böyük şəxsiyyətlər bəxş etmişdir. C.Məmmədquluzadə, H.Cavid, M.S.Ordubadi, A.Babayev, Ə.Qəmküsar, H.İbrahimov, İ.Səfərli kimi görkəmli şair və yazıçıları ilə tanınmış Naxçıvan Azərbaycan ədəbiyyatının inkişafına mühüm təsir göstərmişdir. Naxçıvanın muxtariyyət statusu öz hüquqi həllini tapandan cəmi 4 il sonra – 1928-ci ildə Bakıda fəaliyyət göstərən "Gənc qələmlər" təşkilatının Naxçıvan filialı yaradılmış, 1934-cü ildə isə Azərbaycan Yazıçılar İttifaqı fəaliyyətə başlamışdır. Həmin dövrdə Naxçıvanda Yazıçılar İttifaqının filialı üzvlərinin sayı az olduğundan geniş fəaliyyət göstərə bilməmişdir. Ötən əsrin 40-50-ci illərində Naxçıvan ədəbi mühitində imzaları görünən Adil Babayev, İslam Səfərli, Nağı Nağıyev, Müzəffər Nəsirli, Məmmədəli Tarverdiyev, Əvəz Sadıq, Hüseyn Razi və başqaları sonrakı dövrlərdə Azərbaycan ədəbi mühitində yaxşı tanınan şair və yazıçılar kimi öz sözlərini demişlər.

Qeyd olunmuşdur ki, muxtariyyət dövründə ədəbi mühitin nümayəndələrinə ən böyük diqqəti ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə göstərilmişdir. Dahi şəxsiyyət hər zaman yaradıcı insanlara böyük qayğı ilə yanaşmış, Naxçıvanda yaşayıb-yaradan qələm sahiblərinin əməyini yüksək qiymətləndirmişdir.

Son 18 il ərzində şair və yazıçılarımıza diqqət və qayğı daha yüksək olmuşdur.

70 illik sovet dönəmində Naxçıvanda yaşayıb-yaradan şair və yazıçılarımızın 150-yə qədər kitabı çap olunduğu halda, son 15-20 ildə 800-ə qədər kitab işıq üzü görmüşdür.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 85 illiyi münasibətilə "Dünyanın bəzəyi" adlı antologiya çap olunmuşdur. Uşaqlar üçün "Uşaqlar və Günəş" adlı almanax işıq üzü görmüşdür.

Bu gün Naxçıvanda yaşayıb-yaradan şair və yazıçılarımız, filoloq alimlərimiz onlara göstərilən yüksək qayğıya cavab olaraq yeni, dəyərli əsərləri ilə oxucularını sevindirirlər.

Sonra "Naxçıvan Muxtar Respublikası – 90" adlı sərgiyə baxış olmuşdur.

*Muxtar respublikamızda uzunömürlü ailələrin "gümüş", "qızıl" və "brilyant toy"larının qeyd olunması artıq ənənə halını alıb. Sevindirici haldır ki, muxtar respublikamızda belə ailələr çoxluq təşkil edir.*

## Ailənin "qızıl toyu" qeyd olunub

Uzunömürlü ailələrdən biri də Şahbuz rayonunun Qızıl Qışlaq kəndində yaşayan Hacıyevlər ailəsidir. İdris Hacıyevlə Asya Hacıyevanın evliliklərinin bu ay 50 ili tamam olur. Ailənin 6 övladı, 8 nəvəsi var.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova, Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Mətanət Məmmədova və ailənin yaxınları iştirak ediblər.

Tədbirdə çıxış edənlər vurğulayıblar ki, muxtar respublikamızda yaşayan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması, ailələrin daha da möhkəmləndirilməsi və uzunömürlülüyün təmin edilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Sonda yubilyarlara hədiyyələr təqdim edilib.

Yubilyarlar və ailə üzvləri yüksək qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

## Aztəminatlı ailələrlə görüşlər davam etdirilir

Aztəminatlı ailələrə mütəmadi baş çəkilməsi və onların mövcud çətinliklərinin aradan qaldırılması üçün Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri tapşırılan vəzifələrin öhdəsindən gəlməyə səy göstərirlər. Adıçəkilən təşkilatların əməkdaşları bu günlərdə Culfa rayon Kırna kəndində yaşayan Mehdiyevlər ailəsində olmuşlar. Aztəminatlı ailənin üzvlərinin yaşayış vəziyyəti ilə maraqlanılmış, ailə üzvləri tibbi müayinədən keçirilmiş, onlara hədiyyə və ərzaq payı verilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan aztəminatlı ailənin üzvləri göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildirmişlər.

## Peşəyönümü məşğələlərə başlanılıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın məqsədlərindən biri də peşə hazırlığının əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılmasıdır. Bunun üçün dövlət proqramında əmək bazarının tələbinə müvafiq olaraq, işaxtaranların peşə hazırlığının təşkili üzrə silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədilə onlara tədris müddəti ərzində əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi ilə bağlı proqramda nəzərdə tutulan tapşırığın icrasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Təhsil Nazirliyi ilə razılaşdırılmış qrafikə əsasən, muxtar respublikanın ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün peşəyönümü məşğələlərə başlanılıb.

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin yuxarı sinif şagirdlərinin iştirakı ilə təşkil olunan peşəyönümü məşğələdə Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin əməkdaşları tərəfindən əyani vasitələrlə məşğulluq xidmətinin fəaliyyəti, əmək bazarı və muxtar respublikamızın iqtisadiyyatında müxtəlif peşələrə olan tələbatlar haqqında məlumatlar verilib, şagirdlərin hansı peşələrə maraq göstərməsi barədə sorğu keçirilib.

Ümumiyyətlə, peşəyönümü məşğələlərin təşkili əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşmasına, məşğulluq məsələlərinin həllinə, şagirdlərin meyil və maraqları, fiziki imkanları nəzərə alınmaqla onların düzgün peşə seçimi etməsinə imkanlar yaradır.

Məşğələlər davam etdirilir.

**Xəbərlər şöbəsi**



# Bura Naxçıvandır

***Təkcə Azərbaycanın ayrılmaz tərkib hissəsi, Yaxın Şərqin qədim mədəniyyət, Azərbaycanın isə dövlətçilik mərkəzlərindən biri deyil, böyük Vətən ilə quru yol əlaqəsi olmayan yavru Vətəndir Naxçıvan. Kiminin gözündə bəşəriyyətin ilk anası, kiminin gözündə qeyrət qalasıdır Naxçıvan. Bəzilərinin baxışlarında "Nəqşi-cahan"dır – "Dünyanın bəzəyi"dir, bəzilərinin düşüncəsində "Nuhçıxan" – Nuhun quruya ayaq basdığı torpaqdır Naxçıvan. Azərbaycanı sevən insanların dayaq nöqtəsi, Azərbaycan sözündəki "can" kəlməsidir Naxçıvan. Şairlərin ilham dünyasıdır Azərbaycanımızın qeyrət qalası Naxçıvan. Elə Naxçıvanımızın qeyrət qalası sayılan Sədərəkdə dünyaya göz açan, ömrünü bu yurdun gözəlliklərinin tərənnümünə həsr etmiş şair Vaqif Məmmədov üçün də Naxçıvan bir ayrı aləmdir, ən müqəddəs ilham qaynağıdır.***




Onun Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə ərməğan etdiyi yeni kitab da bu ilhamın xəbərçisidir. O, kitabın adında Naxçıvan adını epitetlərlə, bənzətmələrlə təsvir etməyib, sadəcə, "Bura Naxçıvandır" yazıb. Kitabda şairin ayrı-ayrı illərdə qədim diyar haqqında yazdığı şeirlərin hər birində Naxçıvanın qədim tarixinin izləri var:

*Əlincə mərdlərin*
*Haray səsidir.*
*Köksündə izi var*
*Elin-elatın.*
*Ötən əsrlərin*
*Nişanəsidir*
*Daşlaşan qeyrətin*
*Möminə xatın.*

Burada hər daş, hər qaya tarixdən danışır. Bu ulu yurd bir kitabdır, vərəqləri sal qayalar, burda daşlar vərəqlənir. Hər halda şair ilhamı belə deyir:

*Daşlar vərəqlənir, qopuzun, udun*
*Səsini bizlərə daşıyır burda.*
*Qoy ruhu şad olsun Dədə Qorqudun,*
*Tarixin daş dövrü yaşayır burda.*

Naxçıvanın muxtariyyətinin 90 illik yubileyinə həsr edilmiş kitabda bu yurdun əsrarəngiz təbiətinin rəngləri misralara hopmuş, bulaqlarının suyu damcı-damcı vərəqlərə axmışdır:

*Bir bulaq görmüşəm, sirli suyu var,*
*Deyirlər, Heyran da içib buradan.*
*Bura çox ölkədən gəlib qonaqlar,*
*Şərqin karvanları keçib buradan...*

Bu təbiəti təsvir edərkən də "Bura Naxçıvandır" deyir şair:

*Bura Naxçıvandır, burdan təbiət*
*Əsirgəməyibdir heç bir varını.*
*Ucalıq istəsən, Haçadağa get,*
*Özündə saxlayır şah vüqarını.*

Kitabda Naxçıvanın gözəlliklərini təsvir edən ən axıcı şeirlərdən biri "Naxçıvan lövhələri"silsiləsindən "Naxçıvan süitası"dır. Bu diyarın tarixindən, şehindən və mehindən, qaragözlü gözəllərin taleyindən söz açan Vaqif Məmmədov Batabatın çiçəyini, Salvartının qarını nəğmələşdirmişdir:

*Batabatda çiçək açıb,*
*Salvartıda qardı, yağır.*
*Haçadağın zirvəsindən*
*Həm sevgi, həm nurdu, yağır.*

Burda yaşayan insanların vətənpərvərliyindən, qurub-yaratmaq əzmindən də güc alıb "Bura Naxçıvandır" kitabındakı şeirlər. Naxçıvanın dünənki ağrılarının Ağrı boyda olduğunu təsvir edən şair insanların əzminin ən güclü silah olduğunu diqqətə çatdırır:

*Düşmən od üstünə od atır yenə,*
*Gör biz nə haydayıq, o nə haydadır...*
*Dözərik, dözmüşük biz dönə-dönə,*
*Onsuz da ağrımız Ağrı boydadır...*

Naxçıvanın bu gününün təsviri bəs necədir? Bir zaman karvan keçən yollarda təklikdən darıxan dağlarda indi nə var, nə yox?

*Karvanlar gedərdi dəstəbədəstə,*
*Yolların yadında bu, belə qalıb.*
*Təklikdən darıxan Duzdağın üstə*
*İndi beşulduzlu otel ucalıb.*

Şərurun, Ordubadın, Culfanın, Kəngərlinin, Sədərəyin, Şahbuzun, Babəkin gözəlliklərini, dünəni və bu gününü təsvir edən şeirlərlə yanaşı, kitabda Naxçıvanda fəaliyyət göstərən təhsil ocaqları, mədəniyyət müəssisələri haqqında da maraqlı şeirlər yer alıb. Diqqətçəkən şeirlərdən biri isə Naxçıvanın muxtariyyət dövrünün salnaməsini yazan və bu şərəfli işi bu gün də ali amallarla davam etdirən "Şərq qapısı" qəzetinin şair qələmindəki təsviridir:

*Neçə tufanlara o, gərdi sinə,*
*Hər zaman səs verdi haqqın səsinə.*
*Döndü Naxçıvanın salnaməsinə,*
*Haqq üzdə dayandı "Şərq qapısı"nda.*

Kitabda bütün şəhər və rayonlarımızdan bəhs olunan şeirlərin hər biri gələcəkdə bəstəkarlarımız tərəfindən nəğməyə çevrilə biləcək qədər axıcı və musiqilidir. Qeyd edək ki, Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyində çapdan çıxan yeni kitabın redaktoru Muxtar Qasımzadədir.

✍ **Elnur KƏLBİZADƏ**

# "Araz-Naxçıvan-2"yə rəqib tapılmadı





Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının birgə təşkil etdiyi mini-futbol turnirinə dünən yekun vurulub. Muxtar respublikanın bütün rayonlarının hər birindən bir, Naxçıvan şəhərindən isə 3 komandanın qatıldığı turnir olimpiya sistemi üzrə keçirilib. 10 komandanın mübarizə apardığı mini-turnirdə ilk olaraq 4 komanda 1/4 finala yüksəlmək üçün qarşılaşıb. Qalib gələn tərəf isə digər 6 komandaya qoşulub və birincilik uğrunda mübarizəyə start verilib. 1/4 finaldan uğurla adlayan "Araz-Naxçıvan-2" və Şərurun "Arpaçay" komandaları finalda iştirak etmək hüququ qazanıblar.

Final görüşü gözlənildiyindən də maraqlı keçib. Belə ki, hesabı oyunda Şərur təmsilçisi açsa da, "Araz-Naxçıvan-2"-nin futbolçuları tezliklə üstünlüyü ələ alıblar. "Status-kvo"nu bərpa etdikdən sonra hesabda önə keçən "Araz-Naxçıvan-2" bu üstünlüyünü sonadək qoruyub. Düzdür, oyunun gedişatında "Arpaçay" hesabı bərabərləşdirib. Di gəl ki, bir qədər təcrübə baxımından üstün olan "Araz-Naxçıvan-2" oyunu 6:4 hesablı qələbə ilə başa vurub.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş turnirin final matçından sonra Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək son zamanlar muxtar respublikada futbola göstərilən qayğıdan danışıb.

Sonra mükafatlandırma mərasimi olub. İkinci pillənin sahibi "Arpaçay" komandasına diplom və qiymətli hədiyyələri gənclər və idman naziri Azad Cabbarov, qalib komandaya kubok, diplom və qiymətli mükafatları isə Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev təqdim edib.

# İkinci dövrənin ilk "ev" oyunu

Futbol üzrə Azərbaycan I divizionunun 17-ci turu çərçivəsində "Araz-Naxçıvan" futbol komandası doğma arenada Qusarın "Şahdağ" klubunu qəbul edəcək. Muxtar respublika təmsilçisinin heyətində bir itkinin olması baş məşqçi Əsgər Abdullayevi qayğılandırır. Belə ki, qırmızı vərəqə cəzalısı olan Eşqin Quliyev bu oyunu da buraxmalı olacaq. Ötən oyunun sarı vərəqə cəzasına görə buraxan David Canıyev və Ruslan Abıyev isə "Şahdağ"la qarşılaşmada meydanda olacaqlar.




Cari çempionatın ilk dövrəsində Qusarda keçirilən oyun bir çox maraqlı məqamları ilə yadda qalmışdı. Bu görüşü qələbə ilə (2:0) başa vuran "Araz-Naxçıvan" çətin səfərdən 3 xalla qayıtmışdı. Eyni zamanda rəqibin futbolçusu Yusif Yusifzadə aqressiv hərəkətinə görə meydandan qovuldu və ikiillik futboldan kənarlaşdırıldı.

Qeyd edək ki, "Araz-Naxçıvan"-"Şahdağ" matçı bu gün Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək. Oyunun başlama saatı isə 14⁰⁰-dür.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 174